**Aida Eyvazlı Göytürk**



# Onun adı Darxan

(əvvəli ötən sayımızda)

### Azərbaycanda Darxan Kıdıralını ürəkdən sevən etibarlı dostları var

*Darxan Kıdıralının yeni vəzifəsini Azərbaycan Elmlər Akademiyasının prezideni, türk dünyasının fikir adamı , akademik İsa Həbibbəyli belə uğurladı:*

*- Azərbaycan elminin, ədəbiyyatı və ictimai fikrinin görkəmli nümayəndələrinin tanıdılmasına Darxan Kıdıralı Beynəlxalq Türk Akademiyasının prezidenti kimi ürəklə xidmət etmişdir. Azərbaycanda Darxan Kıdıralını ürəkdən sevən etibarlı dostları vardır. Bütün bunlar tanınmış elm xadimi və böyük təşkilatçı Darxan Kıdıralının türk dünyası və müasir Qazaxıstan dövlətçiliyi üçün gərəkli və faydalı bir persona olduğunu göstərir.*

*Akademik İsa Həbibbəyli daha sonra əlavə edir ki:*

“Darxan Kıdıralı dövlətçilik təfəkkürü ilə, siyasi dünyabaxışla elmi idealları birləşdirməyi, onların üzvü vəhdətinə nail olmağı bacarır. Möhkəm surətdə bu fikirdəyəm ki, Darxan Kıdıralı elm ağırlıqlı ictimai-siyasi xadimdir. Beynəlxalq miqyasda, xüsusən, türk dünyasında inteqrasiya proseslərinin genişlənməsində və inkişaf etdirilməsində akademik Darxan Kıdıralının və onun uzun illər uğurla rəhbərlik etdiyi Beynəlxalq Türk Akademiyasının mühüm rolu vardır. Ümumiyyətlə, Darxan Kıdıralının ünsiyyət yaratmaq məharəti etibarlı şəxsi dostluq əlaqələrinin, elmi təşkilatların, dövlət qurumlarının, alimlərin və ictimai xadimlərin möhkəm münasibətlərinin qurulmasına böyük töhfə verir.

Darxan Kıdıralı özünü yüksək idarəçilik qabiliyyətinə malik olan böyük təşkilatçı kimi də isbat etmişdir. O, dövlət müstəqilliyi dövrünün meydana çıxardığı Türk Akademiyasının işlərini əsaslı şəkildə yenidən qurmuş, bu Akademiyaya beynəlxalq status qazandırmışdır. Qürur hissi ilə demək olar ki, məhz akademik Darxan Kıdıralının sayəsində Beynəlxalq Türk Akademiyası türk dünyası miqyasında və Şərq-Qərb müstəvisində daha geniş beynəlxalq müstəviyə çıxmışdır. Avropa ölkələrindən Türkiyəyə, Qafqaza, Sibirə və Monqolustana qədərki böyük ərazidə Beynəlxalq Türk Akademiyasının apardığı tədqiqatlar, əldə etdiyi mühüm elmi nəticələr həm elmi əməkdaşlığın inkişaf etdirilməsi, həm də elmin daha da zənginləşdirilməsi baxımından əhəmiyyətlidir.”- Sitatın sonu.

### Azərbaycan Türk dünyasının döyünən ürəyidir

Akademik , Darxan Kıdıralı Vətən, xalq, elm adına işə başladığı hər yerdə cığır açdı, yol açdı. Özünə mənəvi müəllim hesab etdiyi İsmayıl Qaspralının “İşdə, dildə, fikirdə birlik” devizini Beynəlxalq türk Akademiyasına gətirdi. Adı unudulmaqda olan, repressiyaya uğrayan böyük fikir və elm adamlarının əsərlərinin, şəxsiyyətlərinin üstündən sovet orunu sildi, tozunu təmizlədi. Macar yazıçısı Mandoku Konurun böyük kitabxanasını Akademiyaya gətidi. İndi Beynəlxalq türk Akademiyası ititrilmiş türk yazıları ilə dolu bi xəzinədir. Darxan Kıdıralının rəhbərliyi 5 il müddətində keçirilən “Böyük Çöl” forumu bütün türk dünyası araşdırmaçıları üçün görüş, fikir mübadiləsi yeri oldu. Burada türk dünyası bilən elm adamlarının görüşlri nəicəsində yeni ideyalar, yeni yollar müəyyənləşdi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Astanada keçirilən son sammitində dövlət başçılarının qərarına uyğun olaraq, Beynəlxalq Türk Akademiyası qarşısında “Ortaq türk tarixi”, “Ortaq türk ədəbiyyatı” və “Ortaq türk coğrafiyası” dərsliklərinin hazırlanması məsələsi qoyuldu və nəticə əldə edildi. Bu gün Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan məktəblərində, eləcə də Akademiyanın müşahidəçi üzvü olan Macarıstanda bu dərsliklər orta məktəvlərdə uğurla tətbiq edilir. Məqsəd isə, elimizdən alınan tariximizi, pozulan tariximizi, ədəbiyyatımızı, pozulan birliyimizi yenidən işığa çıxarmaq və yaşatmaqdır.

Akademik İsa Həbibbəylinin sözünə qüvvət olaraq qeyd etmək istərdim ki, Darxan Kıdıralı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2017-ci ildə “Dostluq Ordeni”nə layiq görülüb. O günləri xatırlayanda həmsöhbətim dedi ki:

- Azərbaycan prezidenti cənab İlham Əliyevdən aldığım mükafat, Türk dünyasına verilən dəyərdir. Bu dəyəri doğrultmağa, yaşatmağa çalışmaq isə bizə bir könül və əməl borcudur. Hörmətli prezident İlham Əliyevlə görüşəndə BTA-nın nəşri olan Qoç abidələri kitabını hədiyyə etdim. Qoç başları, hakimiyyətin, qoyun başları və heykəlləri ruzi –bərəkətin, quzu artımın, çoxalmanın simgəsidir. Qurd sərbəstliyin və azadlığın, aslan gücün rəmzidir. Prezident İlham Əliyevi bu simgələr çox maraqlandırdı və bildirdi ki həmin daş abidələrdən Azərbaycanda da vardır. Və əlavə etdi ki, bu abidlər bir daha sübut edir ki, bizim tariximiz eynidir. Tanrı Azərbaycan xalqına güc verdi. 2020-ci ildə öz tarixi torpaqlarını geri almağa başladı. Azərbaycan Türk dünyasının döyünən ürəyidir. Mənim Azərbaycanda, Özbəkistanda, Qlrğızıstanda, Macarıstanda, Türkiyədə dostlarımızn sayı kəndimizdə tanıdığım adamlardan çoxdur.



***Təəccüblü bir məqam var idi ki, ana uzun illər boyu hətta, böyük oğlu Darxanın da evinə belə bir günlük də olsun qonaq gəlməmişdi.Oğlunun əkidi ilə bir dəfə 2020-ci ildə COVİD pandemiyası tüğyan edəndə, Darxan anasını Astanaya gətirməyə razı sala bilmişdi. Bir də ki ötən ilin dekabr ayında ananın səhhəti pozulanda, onu evinə gətirdi. Lakin 31 dekabrda ana elə sevimli oğlunun qolları arasında “kaytış boldı”. Qəndgül ana 1 yanvarda dünyaya gəlmişdi. 2023-cü ilin 1 yanvarında isə övladlar böyük qardaşın evində yığışıb ananın doğum gününü qeyd edəcəkdilər. 71 yaşı tamam olan günü Ananı dəfn edəndən sonra isə göydən günəş boylanacaqdı. Tufan da, boran da sozalıb gedəcəkdi. Qazaxlar yaxşı adam öləndə deyirlər ki, “Kaytış boldı!”-yəni “qayıtdı!”. Qəndgül ana da Tanrının yanına gülə-gülə, ağrısız qayıtmışdı...***

### Qazaxlar yaxşı adam öləndə deyirlər ki, “Kaytış boldı!”

Böyük Çölün oğlu, Bozkır oğlu Türk dünyasının elminə birgəlik bəxş etdi. Bu illər ərzində özü Astanada yaşasa da, getdiyi uzaq və məsuliyyətli səfərlərdən geri dönəndə anası Qəndgül xanımın qoruduğu ocağa gələrdi. Deyirdi ki, yalnız onun dizlərinin üstünə başımı qoyandan sonra, bütün yorğunluğum unudulur və yaratmaq, işləmək üçün gücüm çoxalır.

***Təəccüblü bir məqam var idi ki, ana uzun illər boyu hətta, böyük oğlu Darxanın da evinə belə bir günlük də olsun qonaq gəlməmişdi.Oğlunun əkidi ilə bir dəfə 2020-ci ildə COVİD pandemiyası tüğyan edəndə, Darxan anasını Astanaya gətirməyə razı sala bilmişdi. Bir də ki ötən ilin dekabr ayında ananın səhhəti pozulanda, onu evinə gətirdi. Lakin 31 dekabrda ana elə sevimli oğlunun qolları arasında ‘kaytış boldı”. Qəndgül ana 1 yanvarda dünyaya gəlmişdi. 2023-cü ilin 1 yanvarında isə övladlar böyük qardaşın evində yığışıb ananın doğum gününü qeyd edəcəkdilər. 71 yaşı tamam olan günü Ananı dəfn edəndən sonra isə göydən günəş boylanacaqdı. Tufan da, boran da sozalıb gedəcəkdi. Qazaxlar yaxşı adam öləndə deyirlər ki, ‘Kaytış boldı!”-yəni ‘qayıtdı!”. Qəndgül ana da Tanrının yanına gülə-gülə, ağrısız qayıtmışdı.***

Tanrı yaratdığı bəndəsi Qəndgül üçün güllü-şəkərli həyat verməsə də, övladları böyüyəndən sonra, Darxan bəyin işığına təkcə digər üç övladı deyil, bütöv türk dünyası işıqlandı. Haraya getdisə, özü ilə müəllimə anasından və acı həyatdan aldığı dərsləri şirin və sakit tərzdə anlatdı Darxan bəy. İndi ocağında 4 oğlu 1 qızı böyüyür.

Günümüzn Kul Tegini, Türk dünyası alimlərini, elm adamlarını bir yerə toplaya bilən Darxan Kıdıralı haqqında yazmaqla nə sözüm bitər, nə söhbətim. Bilirəm ki, oxucularımız da işıq kimi dostlarının ürəyinə yayılan Böyük Çöl oğlunun haqqında yazdıqlarımı sevə-sevə oxuyacaqlar. Bu yazıdakı fikrimi isə Napil Bazılxanın və akademik İsa Həbibbəylinin sözləri ilə bitirmək istəyirəm:

***Napil Bazılxan:***

***‘Darxan Kıdıralı Türk Akademiyasının dərəcəsini yüksəltdi və Beynəlxalq hüquq təməlini də, dərəcəsini də sağlamlaşdırdı, bu onun böyük zəhmətləri sayəsində başa gəldi. O Türk dünyası üçün çox möhtəşəm işlər görmüş böyük bir elm adamı və bacarıqlı diplomatdır.***

***İsa Həbibbəyli, akademik:***

***Türk dünyasının böyük oğlu, Qazaxıstan ölkəsinin tanınmış siması Darxan Kıdıralinin çoxcəhətli səmərəli fəaliyyəti daha parlaq sabahlara gedən yollara gur işıq salır.***